# “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı”

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra UNİCEF və digər beynəlxalq təşkilatlar tərəfindən dövlət uşaq müəssisələrinin və orada təlim-tərbiyə alan uşaqların vəziyyəti araşdırılmağa başlandı. Araşdırmalar nəticəsində uşaq evləri və internat məktəbləri haqqında məlumatlar toplanaraq Heydər Əliyev Fonduna təqdim edildi və bu məlumatların təhlili əsasında 5 illik “Uşaq evləri və internat məktəblərinin İnkişafı Proqramı” adlı proqram hazırlandı. Proqram çərçivəsində görülən tədbirlər nəticəsində bu tip müəssisələrin bir çoxu yenidən qurulmuş, əsaslı təmir edilmiş, yeni inventar və avadanlıqlarla təchiz edilmişlər. Bu tip müəssisələrdə ailə ocağından məhrum olmuş uşaqlar üçün ev şəraitinə maksimum yaxın olan mühit yaradılmışdır.

Bütün bunlarla yanaşı, 1992-ci ildə ratifikasiya edilmiş Uşaq Hüquqları Konvensiyasından irəli gələn vəzifələri həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasında uşaq hüquqları ilə bağlı müxtəlif qanunlar, Prezident fərmanları və Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir. Bütün bu sənədlərə əsasən də ailədə böyümək hər bir uşağın hüququdur, ailə isə uşağın sağlam inkişafı və cəmiyyətə inteqrasiyası üçün ən uyğun mühitdir. Həmin Konvensiyanın tələblərinə əsasən dövlət uşaq müəssisələrindən uşaqların bioloji və ya digər alternativ ailələrə verilməsi, bu uşaqların hüquqlarının qorunması daim diqqət mərkəzində olmalı, uşaqları qəbul edən ailələrə sosial yardım edilməlidir. Respublika iqtisadiyyatının sürətli inkişafı, sosial sahələrə diqqətin artırılması, regionların inkişafı məqsədilə həyata keçirilən tədbirlər nəticəsində yeni iş yerlərinin açılması, adambaşına düşən gəlirin ilbəil artması əhalinin, o cümlədən hər bir ailənin sosial vəziyyətinin yaxşılaşması üçün zəmin yaratmışdır.

Bütün bunları nəzərə alaraq “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)” hazırlandı və 2006-cı ilin mart ayının 29-da ölkə Prezidentinin 1386 nömrəli Sərəncamı ilə təsdiq olundu. Proqram De-institusionalizasiya ilə bağlı işlərin genişləndirilməsi, səmərəli tədbirlərin həyata keçirilməsi və konkret müsbət nəticələrin əldə edilməsinə yönəldilmişdir. Azərbaycan Respublikasının Təhsil Nazirliyi üzərinə düşən vəzifələrin həlli ilə yanaşı, Tədbirlər Planının 19-cu bəndinə əsasən, Proqramın koordinasiyasına cavabdehdir. Bu tarixdən başlayaraq dövlət uşaq müəssisələrində təlim-tərbiyə alan uşaqların mümkün vasitələrdən istifadə edilərək ailələrə verilməsinin nə dərəcədə mühüm məsələ olduğu təsdiqləndi.

Dövlət Proqramının məqsədi uşaq şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində xoşbəxtlik, məhəbbət və anlaşma şəraitində böyüməsinin zəruriliyi nəzərə alınaraq, dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və səmərəli işləməsinin təmin edilməsidir.

***Alternativ xidmətlər***

Hazırda övladlarına sərbəst şəkildə qayğı göstərə bilməyən ailələrin və onların uşaqlarının rifahının yaxşılaşdırılması, uşaqların müəssisəyə düşməsinin qarşısının alınması məqsədilə Təhsil Nazirliyi tərəfindən müvafiq tədbirlər həyata keçirilir. “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı”nın Tədbirlər Planına və dövlət uşaq müəssisələrinin transformasiyası üzrə Baş Plana əsasən, 4 günərzi qayğı və reabilitasiya-inkişaf mərkəzi yaradılmışdır. Mərkəzlərin binaları Təhsil Nazirliyi tərəfindən

yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Eyni zamanda mərkəzlərə inkişafetdirici təlim materialları, reabilitasiya yönümlü avadanlıqlar verilmişdir. Müəssisədə çalışan işçilərə de-institusionalizasiya prosesi, sosial iş, uşaqlara fərdi yanaşma və hər bir uşaq üçün fərdi qayğı, fərdi təlim planlarının hazırlanması üzrə treninqlər təşkil edilmişdir.

***“Mingəçevir uşaq və ailələrə dəstək mərkəzi”***

Təhsil Nazirliyinin tabeliyində ilk fəaliyyətə başlayan mərkəz “Mingəçevir uşaq və ailələrə dəstək mərkəzi” olmuşdur. Mərkəz “Uşaqların Xilası” təşkilatı tərəfindən yaradılmış, Nazirlər Kabinetinin 31s nömrəli, 5 fevral 2009-cu il tarixli Sərəncamına əsasən Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Mərkəz sağlamlıq imkanları məhdud uşaqlara günərzi və reabilitasiya xidmətlərini göstərməklə yanaşı, risk qrupuna daxil olan, müəssisəyə düşmək riski qarşısında olan uşaqlar və onların ailələri ilə profilaktik iş aparır. Onlara psixoloji dəstək, valideyn bacarıqlarının artırılması və hüquqi müvəkkillik kimi xidmətlər göstərirlər. Bu mərkəzin göstərdiyi xidmətlərin nəticəsidir ki, Mingəçevirdən 1 il ərzində yalnız 1 uşaq çətin tərbiyə-olunan uşaqlar üçün müəssisəyə yerləşdirilmişdir. Sağlamlıq imkanları məhdud 45 uşaq mərkəzin günərzi və reabilitasiya xidmətlərindən istifadə edir.



*(“Mingəçevir uşaq və ailələrə dəstək mərkəzi” ndən görüntülər)*




Təhsil Nazirliyinin 1046 nömrəli, 10 sentyabr 2008-ci il tarixli əmri ilə  2 nömrəli Uşaq evinin nəzdində “Günərzi qayğı mərkəzi” yaradılmışdır. Mərkəz risk qrupuna daxil olan, valideynləri işləyən, aztəminatlı ailələrin məktəbəqədər və məktəbyaşlı uşaqları üçün gün ərzində təmin edilən qayğı növüdür. Mərkəzin yaradılmasında məqsəd uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasıdır. Belə ki, mərkəzin fəaliyyətə başlaması ilə uşaq evinə ölkənin digər bölgələrindən olan uşaqların qəbulu dayandırılmışdır. Mərkəzə Suraxanı rayonu ərazisində yaşayan və risk qrupuna daxil olan, aztəminatlı, çətin yaşayış şəraitində olan ailələrin uşaqları yerli icra hakimiyyəti nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən yönəldilir. 2011-ci ildə Baş Plana əsasən Uşaq evi bütövlükdə “Günərzi qayğı mərkəzi”nə çevrilmişdir.

Mərkəzdə psixoloq və loqoped xidmətləri göstərilir. Mərkəz aşağıdakı xidmətləri həyata keçirir:

- Uşaqların müasir tələblərə uyğun yeni bilik və bacarıqlara yiyələnmələrini təmin etmək;
- Uşaqların ev tapşırıqlarının hazırlanmasında köməklik etmək;
- Uşaqların tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirmək;
- Uşaqların fiziki inkişafını təmin etmək;
- Valideynlər və uşaqlara psixoloji xidmət göstərmək;

“Günərzi qayğı mərkəzi” gün ərzində 10-12 saat fəaliyyət göstərir və uşağın mərkəzdə olma müddəti onun ehtiyaclarından asılıdır. Burada hər bir uşaq üçün ayrıca fərdi qayğı planı hazırlanır və plana uyğun olaraq uşaqla iş aparılır. Əsas məqsəd isə “Günərzi qayğı mərkəzi”ndə hər bir uşağa göstərilən qayğı nəticəsində onun cəmiyyətə inteqrasiyası və sosial adaptasiyasını təmin etməkdir.

Maraq və bacarıqlarına əsasən uşaqlar mərkəzdə yaradılmış müxtəlif dərnəklərə (güləş, bacarıqlı əllər, rəqs, rəsm, kompyuter yazılır) cəlb olunurlar. Mərkəzin işçiləri, uşağı dərsdən sonra təhsil aldığı məktəbdən mərkəzə gətirir. Uşaqların axşam nəqliyyat vasitəsilə evlərinə aparılması mərkəz tərəfindən təmin edilir. Bu məqsədlə mərkəzə proqram çərçivəsində Təhsil Nazirliyi tərəfindən mini sərnişin avtobusu verilmişdir. Mərkəzin fəaliyyətə başladığı vaxtdan bugünədək Suraxanı rayonu ərazisindən cəmi 3 uşaq (bir ailədən olan və valideynlərini itirmiş) dövlət uşaq müəssisəsinə gecələmək şərti ilə yerləşdirilmişdir.



*(2 nömrəli Uşaq evinin bazasında yaradılmış Suraxanı rayonu “Günərzi qayğı mərkəzi”ndən görüntülər)*



*(2 nömrəli Uşaq evinin bazasında yaradılmış Suraxanı rayonu “Günərzi qayğı mərkəzi”ndən görüntülər)*

## *11 nömrəli xüsusi internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi"*

Təhsil Nazirliyinin 1050 nömrəli, 08.09.2009-cu il əmri ilə 11 nömrəli internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi" yaradılmışdır. Mərkəz risk qrupuna daxil olan, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuşdur. Mərkəzdə həmçinin psixoloq, loqoped, inkişaf terapiyası (yəni, uşaqlara özünəxidmət bacarıqlarının aşılanmasını öyrədən xüsusi pedaqoq) xidmətlərinin göstərilir. Psixoloq uşaq və onun ailəsi ilə kompleks şəkildə iş aparır. Mərkəz eyni zamanda aşağıdakı xidmətləri həyata keçirir:

- Sağlamlıq imkanları məhdud uşaqlara həyati bilik və bacarıqlara yiyələnmələrini təmin etmək (yəni, müstəqil olaraq özünəxidmət bacarıqlarının inkişaf etdirilməsi);
- Oyunlar vasitəsilə sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki cəhətdən inkişafına yardım etmək;
- Valideynlər və uşaqlara psixoloji xidmət göstərmək;
- Sağlamlıq imkanları məhdud uşaqlara günərzi qayğı xidmətləri göstərmək;
- Mərkəzlərdə keçirilən reabilitasiya proqramlarına valideynlərin cəlb olunması;
- Uşaqların ev tapşırıqlarının hazırlanmasında köməklik etmək;
- Valideynlərə uşaqların hüquqları ilə bağlı hüquqi müvəkkillik xidmətlərini göstərmək (yəni, uşaqlara düşən sosial müavinətlərin, güzəştli dərman preparatlarının alınmasında köməklik, təhsilə cəlb edilməsi və s.);
- Sağlamlıq imkanları məhdud uşaqların ailə üzvlərini onların gündəlik həyatında aktiv rol oynamağa cəlb etmək;



*(11 nömrəli xüsusi internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi"ndən görüntülər)*



*(11 nömrəli xüsusi internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi"ndən görüntülər)*

***Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi"***

Təhsil Nazirliyinin 200 nömrəli, 15.02.2008-ci il tarixli əmri ilə Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Respublika yardımçı internat məktəbin nəzdində uşaqlar üçün "Reabilitasiya-inkişaf mərkəzi" yaradılmışdır.

Mərkəzin yaradılmasında məqsəd uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasıdır. Belə ki, mərkəzin fəaliyyətə başlaması ilə Xəzər rayonu ərazisində yaşayan, risk qrupuna daxil olan (yəni, çətin, böhran şəraitində olan) və aztəminatlı, sağlamlıq imkanları məhdud olan ailələrin uşaqları cəlb edilmişdir.

Mərkəzdə uşaqlara həmçinin psixoloq, loqoped, inkişaf terapiyası (yəni, uşaqlara özünəxidmət bacarıqlarının aşılanmasını öyrədən xüsusi pedaqoq) xidmətlərinin göstərilməsi nəzərdə tutulmuşdur. Psixoloq uşaq və onun ailəsi ilə kompleks şəkildə iş aparır. Mərkəz eyni zamanda aşağıdakı xidmətləri həyata keçirir:

- Sağlamlıq imkanları məhdud uşaqların sadə bilik və bacarıqlara yiyələnmələrini təmin etmək (yəni, sadə riyazi əməllərin, oxu, yazı bacarıqlarını inkişaf etdirmək). Sağlamlıq imkanları məhdud uşaqların müstəqil özünəxidmət bacarıqlarını inkişaf etdirmək məqsədilə Mərkəzdə hər növ avadanlıqla təchiz edilmiş mətbəx otağı yaradılmışdır;
- Oyunlar vasitəsilə sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki cəhətdən inkişafına yardım etmək;
- Valideynlər və uşaqlara psixoloji xidmət göstərmək;

- Sağlamlıq imkanları məhdud uşaqlara günərzi qayğı xidmətləri göstərmək;
- Mərkəzdə keçirilən reabilitasiya proqramlarına valideynləri cəlb etmək;
- Mərkəzə cəlb olunacaq uşaqların ev tapşırıqlarının hazırlanmasında köməklik etmək;
- Valideynlərə uşaqların hüquqları ilə bağlı hüquqi müvəkkillik xidmətlərini göstərmək (yəni, uşaqlara düşən sosial müavinətlərin, güzəştli dərman preparatlarının alınmasında köməklik, təhsilə cəlb edilməsi və s.);
- Sağlamlıq imkanları məhdud uşaqların ailə üzvlərini onların gündəlik həyatında aktiv iştiraka cəlb etmək.

"Reabilitasiya –inkişaf mərkəzi" gün ərzində 10-12 saat fəaliyyət göstərir və uşağın mərkəzdə olma müddəti onun ehtiyaclarından asılı olur. Burada hər bir uşaq üçün ayrıca fərdi qayğı planı hazırlanır və ona müvafiq olaraq uşaqla iş aparılır.

Əsas məqsəd isə mərkəzdə hər bir uşağa göstərilən fərdi qayğı nəticəsində onun cəmiyyətə inteqrasiyası və sosial adaptasiyasını təmin etməkdir.

Məktəbyaşlı uşaqların (1-8-ci siniflərarası) mərkəzdə dərsdən sonrakı asudə vaxtlarının səmərəli təşkili də nəzərdə tutulmuşdur. Uşaqların axşam nəqliyyat vasitəsilə evlərinə aparılması mərkəz tərəfindən təmin edilir. Bu məqsədlə mərkəzə proqram çərçivəsində Təhsil Nazirliyi tərəfindən mini sərnişin avtobusu verilmişdir. Mərkəzdə uşaqların gün ərzində 2 dəfə qidalanması və ehtiyac yaranarsa, ilk tibbi yardım xidmətinin göstərilməsi, habelə, işçilərin bacarıqlarının artırılması məqsədilə mütəmadi treninq və seminarların keçirilməsi nəzərdə tutulmuşdur.



*(Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi"ndən görüntülər)*



*(Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi internat məktəbinin nəzdində "Reabilitasiya – inkişaf mərkəzi"ndən görüntülər)*

***"Sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzi"***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 mart 2011-ci il tarixli Sərəncamı ilə "Məslək" sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya mərkəzi Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Mərkəzdə reabilitasiya xidmətlərində çalışan mütəxəssislər Təhsil Nazirliyi ilə UNİCEF-in birgə keçirdiyi təlimlərə cəlb edilmişlər. Mərkəzdə alternativ xidmətlərə cəlb edilmiş hər bir uşağın qiymətləndirilməsi və onlara fərdi təlim planının tərtib olunmasında tövsiyələrin verilməsi, uşaqlarla aparılan reabilitasiya işinin keyfiyyətinin monitorinq edilməsi həyata keçirilir.

Mərkəz aşağıdakı xidmətləri həyata keçirir:

- Sağlamlıq imkanları məhdud uşaqlara həyati bilik və bacarıqlara yiyələnmələrini təmin etmək (yəni, müstəqil olaraq özünəxidmət bacarıqlarının inkişaf etdirilməsi);
- Oyunlar vasitəsilə sağlamlıq imkanları məhdud uşaqların əqli və fiziki cəhətdən inkişafına yardım etmək;
- Valideynlər və uşaqlara psixoloji xidmət göstərmək;
- Sağlamlıq imkanları məhdud uşaqlara günərzi qayğı xidmətləri göstərmək;
- Mərkəzlərdə keçirilən reabilitasiya proqramlarına valideynləri cəlb etmək;
- Sağlamlıq imkanları məhdud uşaqların ailə üzvlərini onların gündəlik həyatında aktiv rol oynamağa cəlb etmək.

Evdə təhsilə cəlb olunmuş məktəb yaşlı uşaqlar mərkəzin xidmətlərindən istifadə etdiyinə görə evdə təhsilə təhkim olunmuş müəllimlər mərkəzə gəlməsi və tədris prosesinin təşkil edilməsi üçün müvafiq şərait yaradılmışdır. Yay tətilində mərkəzə yaxın ərazidə yaşayan aztəminatlı ailələrin əlilliyi olan uşaqların asudə vaxtlarının səmərəli təşkil edilməsi məqsədilə mərkəzdə yay düşərgəsi də təşkil edilir. Valideynlər içərisindən tərbiyəçi-köməkçisi qismində könüllülər də işə cəlb edilir.